# QARABAĞIN MƏHV EDİLMİŞ EKOLOGİYASI

**Əhmədov N.N.**

*Bakı Dövlət Universiteti*
*nayiq.ahmadov@gmail.com*

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hesablamalarına görə, Ermənistan Respublikası tərəfindən 30 ilə yaxın işğal olunmuş Qarabağın ərazisində qəsdən törədilmiş yanğınlar nəticəsində ümumilikdə 110 min hektardan çox ərazi yanmış və məhv olmuşdur. Yanğınlar zamanı torpağın münbit yuxarı təbəqələri, ot və kollarla birlikdə bütün canlı orqanizmlər də həlak olmuşdur.

Meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuşdur.

Azərbaycanın əvvəllər işğal olunmuş bütün ərazilərində 260 min hektara yaxın meşə ərazisi var idi, lakin son 30 il ərzində meşə örtüyü sürətlə azalmışdır. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, işğal olunmuş torpaqlarımızda bitən bir çox ağac və kol bitkiləri məhv olmaq üzrədir. Onların arasında püstə, dərman stiraksı, Araz palıdı, yalanqoz, Şərq çinarı, adi nar, meşə üzümü, şümşad, Eldar şamı, adi xurma və s. çoxdur. Regionda bitən 460-dan artıq yabanı və kol bitkilərinin 70-i endemikdir, yəni dünyanın başqa heç bir yerində təbii mühitdə bitmir.

İşğalçı Ermənistan tərəfindən flora və faunanın məhv edilməsi, xüsusilə işğaldan azad edilmiş Cəbrayıl, Zəngilan, Qubadlı və digər ərazilərdə ömrü iki min ildən çox olan çinar ağacları kəsilmiş, Şuşa şəhəri ətrafındakı Topxana meşəsi qadağan olunmuş ağ fosforla yandırılmışdır.

2020-ci il sentyabrın 27-də başlayan II Qarabağ müharibəsində şanlı Azərbaycan ordusu Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibə ərzində işğal olunmuş torpaqlarımızı azad etmişdir.

6426 km uzunluğunda suvarma kanalları şəbəkəsi, 185 km uzunluğunda kollektor və drenaj kanalları, 1429 artezian quyusu, 539 hidrotexniki tikinti obyekti, 220 su elektrik stansiyası, 88 nasos stansiyası, habelə ümumi həcmi 640 milyon $m^3$ olan 8 su anbarı uzun illər ərzində işğal altında olub və ermənilər torpaqlarımızdan qovularkən onların əksəriyyətini məhv ediblər.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində 160-dan çox müxtəlif qiymətli metal yataqları, o cümlədən 5 qızıl yatağı, 7 civə, 2 mis yatağı, habelə 1 qurğuşun və sink yatağı, 1 daş kömür yatağı, 6 alebastr, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 rəngli və dekorativ daş yatağı, 21 üzlük daş yatağı və s. də ermənilərin 30 ilə yaxın işğalı altında olmuş və bundan onlar faydalanmışlar.

Qızılbulaq mədəninin və Heyvalı kəndi ərazisində yerləşən dağzənginləşdirmə kombinatının istismar edildiyi 11 il ərzində iki tullantı hovuzunda 4 milyon tona yaxın tullantı toplanmışdı. Mədənin kəşfiyyatı zamanı 20-30 hektar meşə sahəsi məhv edilmişdir. Azərbaycan Respublikası XİN-in hesabatında bildirilir ki, Ermənistanın Sünik rayonunda yerləşən və Qafan dağzənginləşdirmə kombinatının, Zəngəzur mis-molibden kombinatının və "Artsvanik" tullantı hovuzunun tullantıları ilə çirklənmiş çayların suyunun Zəngilan rayonundan keçərək Araz çayına tökülən Oxçuçay sərhəd çayına axması və bununla da Azərbaycanın bir sıra yaşayış məntəqələri üçün, sonda isə Xəzər dənizi üçün ekoloji risklər yaratdığı göstərilmişdir.

II Qarabağ müharibəsi başlanana qədər nüvə və radioaktiv materialların, eləcə də nüvə yanacağı tullantılarının qaçaqmalçılığında Ermənistanın rolunun gücləndiyindən xəbər verir ki, bu da radioaktiv tullantıların əvvəllər işğal olunmuş ərazilərdə yaxın vaxtlaradək Azərbaycanın nəzarəti altında olmayan "boz zona"da basdırıldığı ehtimal olunur.

Hal-hazırda bütün Azərbaycan xalqı işğaldan azad olunmuş ərazilərdə baş vermiş fəlakətləri aradan qaldırmaq üçün əzmlə çalışır.



Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə. III Respublika Elmi Konfransı